# FƏRHAD ZEYNALOV – 90



XX əsr Azərbaycan türkologiyasının ən parlaq simalarından biri professor Fərhad Zeynalovdur. Onun bu elmin ayrı-ayrı problemlərinə həsr etdiyi əsərləri bu gün də öz əhəmiyyətini saxlayır və müasir tədqiqatlara istiqamət verir.

Fərhad Ramazan oğlu Zeynalov 1929-cu il iyun ayının 22-də Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində qulluqçu ailəsində anadan olmuşdur. O, 1948-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsinə daxil olub, 1953-cü ildə həmin fakültəni Azərbaycan dili və ədəbiyyatı, məntiq və psixologiya ixtisası üzrə fərqlənmə diplomu ilə bitirir. Universiteti bitirən F.Zeynalov aspiranturada saxlanılır və təhsilini davam etdirmək üçün Moskva Dövlət Universitetinə göndərilir. 1953-1956-cı illərdə həmin universitetin ümumi və tipoloji dilçilik kafedrasında əvvəllər görkəmli türkoloq N.K.Dmitriyevin, onun vəfatından sonra isə N.A.Baskakovun rəhbərliyi altında tədqiqatlar aparır və 1957-ci ildə "Nitq hissələrinin təsnifi prinsipləri (adlar)" mövzusunda namizədlik dissertasiyası müdafiə edir. F.Zeynalov 1966-cı ildə "Türk dillərində köməkçi nitq hissələri" mövzusunda doktorluq dissertasiyası müdafiə edir və 1968-ci ildə professor elmi adını alır.

F.Zeynalov pedaqoji fəaliyyətə 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin ümumi dilçilik kafedrasında müəllim kimi başlayır, 1969-cu ildə həmin universitetdə türkologiya kafedrasını təşkil edərək 1984-cü ilə qədər həmin kafedranın müdiri vəzifəsində çalışır. Görkəmli türkoloq 1984-cü il oktyabr ayının 16-da vəfat etmişdir.

Professor F.Zeynalov çoxşaxəli elmi yaradıcılığa malik olmuşdur. O, türkologiyanın çeşidli problemlərinə müraciət emiş, türkologiyada mübahisəli görünən bir çox məsələlərə münasibət bildirmiş, həmin problemlərin həlli yollarını göstərmişdir. Onun yaradıcılığında türkologiyanın ümumi nəzəri problemləri xüsusi yer tutur. Görkəmli alim istər kitablarında, istərsə də məqalələrində türk dillərinin tarixi, təsnifi, türk xalqlarının qədim dil əlaqələri, müasir türk dillərinin fonetik, leksik və qrammatik quruluşu kimi problemləri araşdırmışdır.

Türkoloji dilçiliyin nəzəri problemləri içərisində bu dillərin təsnifi problemi öz aktuallığını heç vaxt itirməyib. Bu elə əsaslı və əhəmiyyətli məsələlərdəndir ki, türkologiyanın nəzəri problemləri ilə məşğul olan alimlər bundan yan keçə bilmirlər. Özündən əvvəlki təsnifləri ciddi şəkildə təhlil edən, onların üstün və kəsir cəhətlərini aydınlaşdıran görkəmli alim türk dillərinin əvvəlki təsniflərdən əsaslı şəkildə fərqlənən yeni təsnifini vermişdir.

Professor F.Zeynalovun türkologiyaya həsr etdiyi bütün əsərləri onun öz doğma dili olan Azərbaycan dili ilə əlaqələndirilirdi. O, Azərbaycan dilinin araşdırılmasını

türkoloji səviyyəyə qaldırırdı. Bununla da bu problemlərə digər türkoloq alimlərin də münasibət bildirməsini təmin edirdi.

Türk dillərinin qrammatik quruluşunun araşdırılması professor F.Zeynalovun elmi yaradıcılığının əsas istiqamətlərindən birini təşkil edir. Onun türk dillərində nitq hissələri problemi ilə bağlı yazdığı əsərlər bunu aydın şəkildə göstərir. Məlumdur ki, hər hansı bir dildə nitq hissələrinin müəyyənləşdirilməsi həmin dilin qrammatik quruluşunun öyrənilməsi üçün baza rolunu oynayır. Görkəmli alim bu problemə 5 kitab (“Türk dillərində nitq hissələrinin ənənəvi bölgüsü”, “Nitq hissələrinin təsnifi prinsipləri (adlar)”, “Müasir türk dillərində qoşmalar”, “Müasir türk dillərində ədat və modal sözlər”, “Müasir türk dillərində köməkçi nitq hissələri”) və 20-dən artıq məqalə həsr etmiş, türk dillərində nitq hissələrinin təsnifinin üç prinsipini (leksik-semantik, morfoloji və sintaktik) müəyyənləşdirmişdir. Məhz bu tədqiqatlardan sonra Azərbaycan dilçiliyində və türkologiyada əsas və köməkçi nitq hissələri arasında sərhəd müəyyənləşdirildi, köməkçi nitq hissələrinə aid olunan bir çox sözlər bu qrup sözlərdən təcrid edildi, nitq hissələrinin təsnifi prinsipləri elmi əsaslar üzrə bərqərar oldu.

F.Zeynalovun bu sahədəki tədqiqatlarına xas olan cəhət onun türk dillərinin qrammatik quruluşuna dilin sistem və strukturu baxımından yanaşmasıdır. Görkəmli alimin türk dillərində analitik feil formaları, o cümlədən də mürəkkəb feil problemi ilə bağlı araşdırmaları (“Müasir türk dillərində analitik yolla yaranan feil formaları” (1977), “Türk dillərində mürəkkəb feil problemi” (1983) və s.) buna misal ola bilər. F.Zeynalov analitik feil formaları, feilin perifrastik forması və mürəkkəb feillərin bir-birinə qarışdırıldığını göstərərək bu formalar arasındakı fərqləri araşdıraraq mürəkkəb feil probleminə aydınlıq gətirmişdir. Görkəmli alim iki cilddən ibarət “Türk dillərinin müqayisəli qrammatikası” (1974-1975) əsərində türk dillərinə aid bütün qrammatik kateqoriyaları ətraflı araşdırmış, hər bir qrammatik kateqoriya haqqında özünəməxsus şəkildə fikir söyləmişdir. Xüsusən, onun türk dillərində tərz kateqoriyasının təzahürü məsələsinə münasibəti diqqəti çəkir. Görkəmli alim bu problemə ayrıca məqalə həsr etmiş (“Tərz kateqoriyası və onun türk dillərində təzahürü məsələsi” (1973), “Türk dillərinin müqayisəli qrammatikası” əsərində həmin problemə yenidən qayıtmışdır. Əksər türkoloqların əksinə olaraq professor F.Zeynalov türk dillərində tərz kateqoriyasının olmadığını, tərz anlayışının bu dillərdə müxtəlif üsullarla (leksik, sintaktik) ifadə olunmasının mümkünlüyünü sübut etdi. O, türk dillərində, o cümlədən də Azərbaycan dilində ayrıca şəxs və xəbərlik kateqoriyalarının olmasını iddia edənlərə etiraz edərək adlara artırılan şəxs şəkilçilərinin xəbərlik kateqoriyası əmələ gətirmədiyini əsaslandırdı.

Professor F.Zeynalov təkcə müasir türk dillərinin qrammatik quruluşu ilə deyil, eləcə də türk dillərinin tarixi problemləri ilə məşğul olmuş, qədim və orta əsrlər türk yazılı abidələrinin tədqiqinə xeyli əmək sərf etmişdir. Onun “Qədim türk yazılı abidələri” kitabı, eləcə də indiyə qədər çap olunmamış, C.İ.Cəfərovla birgə yazdığı “Türk dillərinin yazılı abidələri” adlı irihəcmli əsəri buna əyani sübutdur. Onun təkcə kitablarında deyil, məqalələrində də türk dilləri tarixinin bir sıra əhəmiyyətli məsələləri ətraflı araşdırılmışdır. Görkəmli alimin “Mahmud Kaşğari və onun “Divanü lüğət-it-türk” əsəri”, “Kitabi-Dədə Qorqud” və dünya şərqşünaslığı” kimi bir çox məqalələrini buna nümunə göstərmək olar.

Professor F.Zeynalovun 1980-1984-cü illər yaradıcılığında türk dillərinin tarixi məsələlərinin araşdırılması xüsusi yer tutur. Onun oğuz-səlcuq abidələrinə, bu abidələrin qrammatik quruluşuna həsr etdiyi əsərləri öz sanbalı ilə seçilir. Görkəmli alimin “Oğuz-səlcuq abidələri və Azərbaycan dili”, “Şəyyad Həmzənin “Yusif və Züleyxa” əsəri”, “Dastani-Əhməd Hərami” ən qədim Azərbaycan abidəsidir”, “Oğuz-səlcuq abidələrində feilin analitik formaları” kimi

dərin məzmunlu məqalələri onun türk dillərinin tarixi problemlərinə necə ciddi münasibət bəslədiyini aydın göstərir.

Professor F.Zeynalov türk yazılı abidələrinin təkcə tədqiqi ilə deyil, həm də nəşri ilə də məşğul olmuşdur. Bu baxımdan onun S.Q.Əlizadə ilə birgə hazırlayıb çap etdirdikləri “Kitabi-Dədə Qorqud” abidəsini xüsusi qeyd etmək lazımdır. Onlar Əlinin “Qisseyi-Yusif” əsərini çapa hazırlasalar da, həmin əsər bu günə qədər nəşr olunmayıb.

Professor F.Zeynalov böyük alim olmaqla yanaşı, həm də böyük elm təşkilatçısı idi. Onda olan təşkilatçılıq qabiliyyəti, bacarığı tək-tək adamlara xas olan bir keyfiyyətdir. Elminə, pedaqoji ustalığına, təşkilatçılıq qabiliyyətinə görə onu həmişə hörmətlə qarşılayır, adını ehtiramla çəkirdilər. Şəxsi keyfiyyətləri ona böyük nüfuz qazandırmışdı və vəfatından 35 il keçməsinə baxmayaraq onun adı bu gün də elmi məclislərdə hörmətlə yad edilir.

Bakı Dövlət Universitetinin türkologiya kafedrasının yaradıcısı professor Fərhad Zeynalovdur. Həmin kafedrada tədris olunan “Türkologiyaya giriş”, “Qədim türk yazılı abidələri”, “Türk dillərinin müqayisəli qrammatikası” kurslarını yaradan, proqram, dərslik və dərs vəsaitlərini hazırlayan da odur. Bu baxımdan onun qələmindən çıxmış “Türkologiyanın əsasları” adlı dərsliyi xüsusi qeyd etmək lazım gəlir. Bu əsər keçmiş SSRİ məkanında ilk təşəbbüs kimi diqqəti cəlb etdi və elmi-pedaqoji ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı.

Professor F.Zeynalovun yaratdığı və 15 il rəhbərlik etdiyi türkologiya kafedrası Azərbaycan, eləcə də digər türk xalqlarının (qazax, çuvaş, qumuq, qaraçay-balkar, qaraqalpaq və b.) elmi kadrlarının hazırlanmasında böyük rol oynamışdır. Azərbaycanda aparılan türkoloji tədqiqatlara bu kafedra professor F.Zeynalovun simasında nəzarət edir, bu araşdırmaları düzgün məcraya yönəldirdi.

Professor F.Zeynalovu keçmiş SSRİ məkanında, eləcə də xaricdə yaxşı tanıyır, onun əsərlərinə tez-tez müraciət edirdilər. Görkəmli alimin Berlində, Ankarada, İstanbulda, Parisdə, Budapeştdə çap olunmuş əsərlərini buna nümunə göstərmək olar. O, keçmiş SSRİ-də və digər xarici ölkələrdə keçirilmiş bir sıra elmi konfranslarda yaxından iştirak etmiş, türkoloqların böyük marağına səbəb olan məruzələrlə çıxış etmişdir. O istər keçmiş SSRi məkanındakı türk respublikalarındakı milli türkoloq kadrları ilə, istərsə də xarici ölkə türkoloqları ilə sıx əlaqə saxlayırdı. ABŞ-ın İndiana ştatında fəaliyyət göstərən Beynəlxalq Altayşünaslıq Konqresinin üzvü olan görkəmli alim monqol və tunqus-mancur dilçiliyinin nümayəndələri ilə də yaxın əlaqələr qura bilmişdi.

Keçən əsrin 80-ci illərinin əvvəllərində Azərbaycan xalqının etnogenezi və Azərbaycan dilinin mənşəyi qızğın mübahisə obyektinə çevrildi. Həmin dövrdə professor F.Zeynalov milli alim olduğunu, millətin alimi olduğunu bir daha sübut etdi. Onun Azərbaycan dilinin mənşəyi məsələsində tutduğu mövqe buna aydın sübutdur. Bu məsələdə F.Zeynalovun elmi nüfuzu çox iş gördü.

Professor F.Zeynalovun elmi irsi bu gün də yenidir və aktuallığını itirməyib. Onun əsərlərinə, əvvəllər olduğu kimi, bu gün də tez-tez müraciət olunur. Mən əminəm ki, tələbələri və ardıcılları bu böyük alimin türkologiya sahəsindəki araşdırmalarından istifadə edərək onun işini uğurla davam etdirəcəklər.

*Məmmədəli Qıpçaq*